***Son yenilənmə tarixi: noyabr 2017***

# Azərbaycan Respublikası və Estoniya Respublikası arasındakı münasibətlərə dair

# ARAYIŞ

## QISA TARİXİ MƏLUMAT

Azərbaycan Respublikası Estoniya Respublikasının müstəqilliyini 6 dekabr 1991-ci il tarixində tanımışdır. Estoniya Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 20 fevral 1992-ci ildə tanımışdır. Ölkələr arasında diplomatik münasibətlər 20 aprel 1992-ci ildə qurulmuşdur.

10 aprel 2007-ci il tarixində Azərbaycan Respublikasının Latviyadakı Səfiri Tofiq Zülfüqarov iqamətgahı Riqa şəhərində olmaqla eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında Səfiri təyin edilmişdir.

11 oktyabr 2010-cu il tarixində Tofiq Zülfüqarov iqamətgahı Tallin şəhərində olmaqla Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli Səfiri təyin edilmişdir. 2010-cu ilin sonunda Azərbaycan Respublikasının Estoniya Respublikasındakı Səfirliyi Tallin şəhərində fəaliyyətə başlamışdır.

22 fevral 2005-ci il tarixində ilk dəfə olaraq Estoniya Respublikasının Türkiyə Respublikasındakı Səfiri Azərbaycan Respublikasında akkreditə olunmuşdur.

26 avqust 2014-cü il tarixində Estoniya Respublikası Azərbaycan Respublikasında diplomatik ofisini açmışdır. Diplomatik ofisinin rəhbəri  Estoniya Respublikasının Ankaradakı Səfirliyinin müşaviri İndrek Kiverikdir (*1 avqust 2015-ci il tarixində təyin edilmişdir*).

25 noyabr 2015-ci il tarixində Səfir Tofiq Zülfüqarov Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli Səfiri vəzifəsindən geri çağırılmışdır.

12 yanvar 2016-cı il tarixində Murad Nizami oğlu Nəcəfbəyli Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli Səfiri təyin edilmişdir (*etimadnamələr 28.01.2016-cı il tarixində təqdim edilmişdir*).

24 avqust 2016-cı il tarixində xanım Marin Mıtus Estoniyanın Respublikasının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli Səfiri təyin edilmişdir (*etimadnamələr  09.01.2017-ci il tarixində təqdim edilmişdir).*

## Yüksək səviyyəli səfərlər

**Prezidentlər (dövlət səfərləri)**

Azərbaycana

- 12-15 yanvar 2009-cu il, Prezident Toomas Hendrik İlves

Estoniyaya

- 6-8 aprel 2010-cu il, Prezident İlham Əliyev

**Parlamentlərarası əməkdaşlıq**

Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu 5 dekabr 2000-ci ildə, Estoniya Parlamentində isə Estoniya-Azərbaycan parlamentlərarası əməkdaşlıq qrupu 4 mart 2007-ci ildə yaradılmışdır.

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Estoniyanın rəsmi mövqeyi**

- "Tərəflər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümum tanınmış prinsipləri və normaları, xüsusilə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in Lissabon Sammitinin üç prinsipinə, uyğun olaraq suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında tezliklə həll olunmasının vacibliyini vurğulayırlar" (*Azərbaycan Respublikası Prezidenti və Estoniya Respublikası Prezidentinin 7 aprel 2010-cu il və 13 yanvar 2009-cu il tarixli Birgə Bəyannamələrindən çıxarış*).

## İqtisadi sahədə əməkdaşlıq

**Birgə komissiya**

Azərbaycan və Estoniya arasında iqtisadi əlaqələrin inkişafı üçün böyük potensialının mövcudluğunu nəzərə alaraq hər iki tərəf bu sahədə əməkdaşlığının genişləndirilməsinə daim maraq göstərməkdədir.

Bununla əlaqədar Azərbaycan Respublikası Hökuməti və Estoniya Respublikası Hökuməti arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya Azərbaycan Respublikası Prezidentinin 21 noyabr 2011-ci il tarixində yaradılmışdır. Bu tarixdən hazıradək Komissiyanın üç iclası keçirilmişdir (*son üçüncü görüş 2017-ci ilin 6 aprel tarixində, Bakıda keçirilmişdir*).

**<u>İki ölkə arasında ticarət dövriyyəsi</u>** <u>(min ABŞ dolları)</u>

| Tarix | İdxal | İxrac | Ticarət dövriyyəsi |
|---|---|---|---|
| 2004 | 1,270.1 | 98.0 | 1.368 |
| 2005 | 1,076.2 | 1,462.9 | 2.540 |
| 2006 | 1,646.9 | 525.3 | 1.698 |
| 2007 | 1,4558,3 | 500.6 | 1.955 |
| 2008 | 5.417.1 | 761.1 | 6.178 |
| 2009 | 1814.0 | 396.1 | 1.814 |
| 2010 | 6652.1 | 461.5 | 6.652 |
| 2011 | 4,141.9 | 663.8 | 4.805 |
| 2012 | 5,935.9 | 379.4 | 6.314 |
| 2013 | 7,511.6 | 771.2 | 8.288 |
| 2014 | 4,391.0 | 222.9 | 4.613 |
| 2015 | 5,697.9 | 253.4 | 5.950 |
| 2016-cı ilin birinci yarısı | 278.3 | 49.6 | 327.6 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi.

## <u>Biznes forumlar</u>

1. 2007-ci ilin 29 oktyabr tarixində Azərbaycan-Estoniya biznes forumu Bakıda keçirilmişdir;
2. 2009-cu ilin 13 yanvar tarixində Azərbaycan-Estoniya İKT biznes forumu Bakıda keçirilmişdir;
3. 2012-ci ilin 29 iyun tarixində Azərbaycan-Estoniya biznes forumu Bakıda keçirilmişdir.
4. 2014-ci ilin 29-30 sentyabr tarixlərində Estoniya-Azərbaycan biznes forumu Tallində keçirilmişdir;
5. 2017-ci ilin 7 aprel tarixində Azərbaycan – Estoniya biznes forumu Bakıda keçirilmişdir.
6. 2017-ci ilin 26-28 oktyabr tarixində Estoniya-Azərbaycan biznes forumu Tallində keçirilmişdir.

## Humanitar sahədə əməkdaşlıq

- Estoniyada, Kamal Abdullanın "Ruh" kitabı, Mirzə Şəfi Vazeh, Molla Pənah Vaqif və Mirzə Fətəli Axundovun əsərləri eston dilinə tərcümə edilmiş, "Türk dünyası yer adları" kitabı çap etdirilmiş və Estonca-Azərbaycanca lüğət tərtib olunmuşdur. Həmçinin, Estoniyada yaşayan soydaşımız Cəfər Məmmədov tərəfindən "Estonlar Azərbaycanda" və Vidadi Məmmədov tərəfindən "Dədə Qorqud" kitabı eston dilinə tərcümə edilmişdir.

- 4-5 may 2007-ci ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin doğum günü ilə əlaqədar Tallində A.Qasımovun iştirakı Azərbaycan milli musiqisindən ibarət konsert təşkil olunmuşdur.

- 10 may 2008-ci il tarixində Səfirliyin dəstəyi ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85 illik yubileyi qeyd olunmuşdur.

- 28 may 2008-ci ildə Tallində "Aydan" Azərbaycan-Estoniya Mədəniyyət Mərkəzində Estoniya dövlət rəsmilərinin iştirakı ilə Azərbaycan Demokratik Respublikasının yaradılmasının 90 illiyi münasibətilə tədbir keçirilmişdir.

- 25 sentyabr 2008-ci ildə Tallində fəaliyyət göstərən Kukla teatrının həmyerlimiz Azərbaycanın əməkdar artisti Rauf Avşarovun rəhbərlik etdiyi yaradıcı heyəti ölkəmizdə səfərdə olmuşdur.

- 9 aprel 2009-cu il tarixində Estoniyada Azərbaycanın milli bayramları və matəm günlərinə həsr olunmuş "Azərbaycanlılar" kitabı çapdan çıxmışdır.

- 2011-ci ildən başlayaraq Estoniyanın "R4" dövlət radiokanalında müntəzəm olaraq ayda ilk dəfə "Ocaq" verilişi yayımlanır. Verilişin redaktoru S.Əliyevadır. Verilişdə Azərbaycan reallıqları, tarixi, mədəniyyəti və s. təbliğ olunur.

- 23-27 mart 2011-ci il tarixlərində Estoniyanın Rakvere şəhərində 5-ci Beynəlxalq İ.S.Bax müsabiqəsi keçirilmişdir. Müsabiqədə Azərbaycandan Bakıda yerləşən G.G.Şaroyev adına 35 saylı musiqi məktəbinin 6-cı sinif şagirdi 17.09.1999-cu il təvəllüdü Nəriman Əmiraslanov 10-12 yaş kateqoriyasında iştirak etmişdir. Azərbaycanlı iştirakçı müsabiqə münsifləri tərəfindən ən yüksək qiymətlər verilməklə, birinci yerə layiq görülərək müsabiqənin laureatı olmuşdur.

- 18 oktyabr 2011-ci il tarixində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü ilə bağlı Tallinin Ratuşa bələdiyyə binasında tədbir

keçirilmişdir. Mədəni proqram çərçivəsində Azərbaycan milli rəqsləri nümayiş etdirilmiş, M.Maqomayevin mahnıları ifa olunmuşdur.

- 18 noyabr 2011-ci ildə Tallində "Qara Gecələr" Beynəlxalq Film Festivalında Azərbaycan "Buta" filmi ilə təmsil olunmuşdur. Film Festivalı çərçivəsində Estoniyada fəaliyyət göstərən Azərbaycan diasporunun və Səfirliyin dəstəyi ilə Azərbaycana həsr olunmuş təqdimat keçirilmişdir. Bakı şəhəri haqqında "Day in the City" adlı videofilm nümayiş etdirilmişdir. Tədbirdə Azərbaycan milli rəqsləri təqdim olunmuşdur.

- 17 dekabr 2011-ci il tarixində "İctimai Televiziya və Radio Yayımları" şirkəti və "Tallinna TV" teleşirkəti arasında əldə olunmuş razılaşmaya əsasən Səfirliyin və Estoniyada fəaliyyət göstərən Azərbaycan diasporunun dəstəyi ilə 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş telekörpü keçirilmişdir.

- 2012-ci il yanvarın 29-dan fevralın 4-dək Estoniyanın Narva şəhərində keçirilən gənc pianoçuların Frederik Şopen adına IX Beynəlxalq Musiqi Müsabiqəsində Bülbül adına Orta İxtisas Musiqi Məktəbin tələbələri Rüstəm Zeynalov müsabiqənin baş mükafatına - «Qran-Pri»yə və Nərmin Nəcəfli isə orta yaş qrupunda I yerə layiq görülmüşdür.

- 2012-ci ilin 28 aprel tarixində Estoniyadakı milli azlıqların Bazar Günü Məktəblərinin Müəllimləri Birliyi "Şərq qadını Firuzə" Qeyri-Kommersiya Təşkilatı ilə birlikdə Estoniyanın Keyla şəhərindəki məktəbdə İslam xalqlarının Mədəniyyəti Gününü təşkil etmişlər. Keyla məktəbinin eston şagirdləri üçün tədbirin hazırlanması və keçirilməsində Azərbaycan və Dağıstan bazar günü məktəblərinin müəllim və şagirdləri iştirak etmişlər. Rauf Avşarovun kukla teatrının Azərbaycan əfsanələri əsasında hazırladığı "Qız qalası" tamaşası nümayiş etdirilmişdir. Sonra şagirdlərə siniflərdə müxtəlif mövzularda dərslər keçirilmişdir. Yuxarı sinif şagirdləri ilə görüşdə Azərbaycanın Estoniyadakı səfirliyinin əməkdaşları ölkəmiz barədə məlumat vermiş, Azərbaycanın bu günündən bəhs edən film nümayiş etdirilmişdir. Səfirliyin əməkdaşları şagirdlərin çoxsaylı suallarına cavab vermişlər. Məktəbdə Azərbaycan, Dağıstan və Türkiyə xalqlarının mədəniyyətindən və ənənələrindən bəhs edən sərgi təşkil olunmuşdu.

- "Eurovision" mahnı müsabiqəsi zamanı Azərbaycana səfərləri təşkil olunmuş A. Tsukerman və V. Vladislavlevin müəllif olduqları "Subboteya" verilişi Baltikyanı ölkələrdə böyük auditoriyaya malik olan "PBK" telekanalında iki dəfə 3 iyun və 10 iyun tarixlərinə yayımlamışdı. Həmin verilişlər Azərbaycanda keçirilmiş "Eurovsion 2012" mahnı müsabiqəsinə, Azərbaycanın mədəniyyətinə və tarixinə həsr olunmuşdur.

- 2012-ci ilin 21-24 mart tarixlərində Estoniyada Kohtla-Yarve şəhərində gənc ifaçılar arasında VII Beynəlxalq Akademik Vokal Müsabiqəsi keçirilmişdir. Müsabiqədə 12-14 yaş qrupu arasında Azərbaycan Dövlət Uşaq Filarmoniyasının solisti İbrahim Nəsrullayev və Fikrət Əmirov adına 6-cı incəsənət məktəbinin şagirdi Eldar Tahirov birinci mükafata, həmin məktəbin şagirdi Mərziyyə Hüseynova isə ikinci mükafata layiq görülmüşlər.

- 2012-ci ilin 28 may tarixində Tallin Şəhər Sovetinin binasında Azərbaycan rəssamları İradə və Rza Avşarların əsərlərindən ibarət "Kaks tiiba" ("İki qanad") adlı bir həftəlik sərgi keçirilmişdir.

- 2012-ci ilin 6 noyabr tarixində Azərbaycan mədəniyyətinin təşviq etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Estoniyadakı Səfirliyinin dəstəyi ilə Estoniya Parlamentinin spikeri xanım Ene Erqma, Estoniya-Azərbaycan Parlament Dostluq Qrupu və Azərbaycan icmasının iştirakı ilə görüş keçirilmişdir. Görüşdə Azərbaycan reallıqları, ölkəmizin tarixi, mədəniyyəti, sosial-iqtisadi inkişafı və s. barədə qonaqlara məlumat verilmişdir.

- 2013-cü ilin 21-25 sentyabr tarixlərində Azərbaycan Milli Kitabxanasının 90 illik yubiley tədbirlərində iştirak etmək üçün Estoniya Milli Kitabxanasının Baş direktoru Yanne Andresoo Azərbaycana səfər etmişdir.

- 3-13 iyul 2014-cü il tarixlərində "Mən Azərbaycan haqqında nə bilirəm?" müsabiqəsində qalib gəlmiş Estoniyanın bir neçə şagird və tələbənin Azərbaycana səfər etmişdirlər.

- 2014-cü ilin 14-30 noyabr tarixlərində Beynəlxalq "Black Nights" film festivalında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş faciəli hadisələrə həsr olunmuş "Oskar" mükafatına təqdim edilmiş Azərbaycan istehsalı olan "Nabat" filmi nümayiş olunmuşdur.

- 2015-ci ilin 15 noyabr tarixində, Tallində «Black Nights» Beynəlxalq Film Festivalında "Bakı Film" Kinostudiyasının "Qanlı Yanvar" bədii filmı nümayiş olunmuşdur. Sözügedən film festivalın xüsusi diplomu ilə mükafatlandırılmışdır.

- 2016-cı il 21 mart tarixində Azərbaycan icması, eləcə də Estoniyada yaşayan başqırd, qabardin, tatar, çərkəz, özbək icmalarının təşkili, Azərbaycanın və Türkiyənin Estoniyadakı Səfirliklərinin, eləcə də Estoniya Mədəniyyət Nazirliyinin dəstəyi ilə Tallində, Ratuşa binasında Novruz bayramı ilə əlaqədar tədbir keçirmişdir.

- 2016-ci ilin 11-27 noyabr tarixlərində "Qara Gecələr" Beynəlxalq Film Festivalı çərçivəsində Azərbaycan kinematoqrafçılarının istehsalı olan "İçəri Şəhər" filmi nümayiş olunmuşdur.

- 2017-ci ilin 25 may tarixində Səfirlik tərəfindən Azərbaycan Respublikası və Estoniya Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyi münasibəti ilə rəsmi qəbul təşkil olunmuşdur.

**Təhsil**

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na Tallin Texniki Universiteti və Tartu Universiteti əlavə edilmişdir.

3-10 sentyabr 2013-cü il tarixində Azərbaycan Tələbələr Birliyinin təşkilatçılığı və Avropa Komissiyasının "Gənclər fəaliyyətdə" proqramının dəstəyi ilə Azərbaycanda keçirilmiş təhsil imkanlarının yaradılması yollarının araşdırılmasına dair "Tarixin tarixi" adlı təlim proqramında 5 gənc estoniyalı tələbə iştirak etmişdir.

6-20 iyul 2013-cü il tarixində Azərbaycan Diplomatik Akademiya tərəfindən təşkil edilmiş 7-ci Bakı Enerji Yay Məktəbin tədbirində Tartu Universitetinin tələbəsi iştirak etmişdir.

2014-cü ildə ilk dəfə Estoniyada şagird və tələbələr arasında "Mən Azərbaycan haqqında nə bilirəm?" mövzusunda inşa müsabiqəsi keçirilmişdir. İnşa qalibləri bir həftəlik Azərbaycana səfər etmişlər.

29 oktyabr 2015-ci il tarixində Tartu şəhərində Tartu Universitetində "Azərbaycan Gecəsi" tədbiri keçirilmişdir.

6 noyabr 2015-cü il tarixdə Baltik Müdafiə Kollecin hər il təşkil edilən Beynəlxalq Baltiya Gecəsində Azərbaycanın silahlı qüvvələrinin, mədəniyyətinin, ənənələrinin və milli mətbəxinin təqdimatı keçirilmişdir.

2015-ci ilin 26 oktyabr tarixində "Gəncə – Avropa Gənclər Paytaxtı 2016" seçilməsi ilə əlaqədar, Tallinin "Artis" intellektual kino mərkəzinin sərgi zalında gənc eston fotoqrafı Liis Reymanın "Gəncə avropalı gənclərin gözü ilə" mövzusunda sərgisi təşkil edilmişdir. Sərgidə, "Gəncə – Avropa Gənclər Paytaxtı 2016" layihəsi çərçivəsində 2015-ci ilin iyun ayında ölkəmizdə keçirilmiş beynəlxalq fotomüsabiqənin mükafatlarına layiq görülmüş işlər (fotoşəkillər) nümayiş olunmuşdur.

2016-cı ilin 27-28 oktyabr tarixlərində Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik Akif Əlizadənin başçiliq etdiyi nümayəndə heyəti Estoniya Respublikasına səfər etmişdir. Səfər çərçıvəsində Azərbaycan Milli Elmlər Akademiyası və Estoniya Elmlər Akademiyası arasında elmi əməkdaşlıq üzrə saziş imzalanmışdır.

Hazırda Estoniyada Azərbaycandan 30-dan çox tələbə təhsil alır. Bunlardan Tallin və Tallin Texniki universitetləri, Estoniya Diplomatik Akademiyası və Baltik Müdafiə Kollecidir.